# Bölgələrdə 20 Yanvar şəhidlərinin xatirəsi yad edilib






## Gəncə

Gəncə şəhər Şəhidlər xiyabanında 20 Yanvar faciəsində Azərbaycanın müstəqilliyi və suverenliyi uğrunda həlak olan şəhidlərin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilmişdir.

Mərasimdə şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki Baş konsulu Recep Öztop, Gürcüstanın Gəncədəki Baş konsulu Qaxaber Abdaladze, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, Milli Məclisin deputatları Pərvin Kərimzadə və Müşfiq Cəfərov, idarə, müəssisə, təşkilat rəhbərləri, şəhid ailələri, müharibə iştirakçıları iştirak etmişlər.

İştirakçılar əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda itkin düşmüş hərbçilərin adları əks olunan lövhəni ziyarət etmiş, lövhə önünə gül dəstələri düzmüşlər. Hərbi orkestrin ifasında Dövlət himni səsləndirildikdən sonra din xadimləri şəhidlərin ruhuna dualar oxumuşlar.

Saat 12:00-da Gəncə şəhərində şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilmiş, Nizami Gəncəvi və Heydər Əliyev, həmçinin Heydər Əliyev və Şah İsmayıl Xətai prospektlərinin kəsişməsində nəqliyyatın hərəkəti dayandırılmış, avtomobillərdən səs siqnalları verilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 22 yanvar (№ 13).- S.11.